Üç əsrin qəzeti
KASPİ
www.kaspi.az
23-25 sentyabr 2017 156 (3906) Qəzetin əsası 1881-ci ildə qoyulmuşdur



# Çingiz Aytmatovun duası



■ Mehman HƏSƏN

Çingiz Aytmatovun qəhrəmanları taleyi ilə təbiətə bağlıdır, təbiətin içindədirlər və ondan ayrılmayıblar. Onlar çətinə düşəndə təbiətdən kömək istəyir, ona sığınırlar. Çünki bu mühit yazıçıya insanı, onun yaradıcı mahiyyətini oxucuya izah etməyə imkan verir. Əslində isə bu amil dünya müharibələrindən sonra meydana çıxan tarixi situasiya ilə birbaşa bağlı idi. Ədəbiyyat, daha geniş miqyasda götürsək sənət, mədəniyyət insanlığı sarsıdan qorxunc hadisələr qarşısında özünü təsdiq etmək zərurəti ilə üz-üzə qalmışdır. Çingiz Aytmatovun əsərləri bu baxımdan tarixi şəraitin doğurduğu suallara cavab axtaran, dünya nəsrinin aparıcı tendensiyalarını özündə əks etdirən mükəmməl bədii nümunələr idi.

İnsan həm də yaradıcıdır. Təhtəlşüur nəzəriyyəsinin yaradıcısı Yunq özünün arxetip nəzəriyyəsində insanın təbiətdəki funksiyasından bəhs edərkən yazır: "Kimyaçıların fikrinə görə təbiətin yarımçıq qoyduğunu sənət tamamlayır. Mən, yəni bir insan, gizlin bir yaradıcılıqla dünyaya obyektiv mövcudluq qataraq onun qüsursuz damğasını vurmuşdum. Deyilənə görə belə bir davranışı ancaq Yaradan edə bilər... İnsan yaradılışın tamamlanması üçün vacibdir. Çünki insan ikinci bir yaradıcıdır və dünyaya obyektiv varlığını sübut edən də məhz odur".

Yazıçının "Dəniz kənarıyla qaçan alabaş" povestində Mılğun dənizə çökən dumanın çəkilmədiyinə görə külək şamanını qarğıyır, balaca Kirisk Göy siçandan su istəyir, Aququk quşunun ona kömək olacağına inanır, Ulu Alabaşını axtarır, küləyi, ulduzu, dalğaları adlandırır. Mifdən, şifahi bədii düşüncədən, "Manas"dan qidalanan Aytmatov yaradıcılığında insan hələ müasir cəmiyyətlə təbiətin arasında seçim qarşısındadır. Yazıçının arzusu insanın təbiətlə vəhdətdə qalmasındadır. Və yaxud, Çingiz Aytmatovun sonuncu romanı - "Əbədi gəlin"də süjet xətti başdan-başa həmin amillə bağlıdır. Yazıçı yer səthindən üç min metr hündürlükdə yaşayan qar bəbiri Caabarsla kapitalist mühitin qaydaları ilə çarpışan və onunla barışa bilməyən jurnalist Arsen Samançinin taleyi arasında paralel aparır, bağ qurur. Əsərin sonunda hər şefdən əli üzülən Arsen öz təbii ölümünə doğru gedən Caabarsla qarşılaşır və eyni mağarada hər ikisinin həyatı sona çatır. "Taleyin nələr edə biləcəyini bilmək çətindir, belə olub, əbədiyyətə qədər belə olacaq və bunu dəyişdirmək mümkün deyil.... Bu vəhşi heyvan həyatının son günlərində taleyini bir insanla paylaşacağını isə təxmin belə edə bilməzdi... Halbuki, bu qarşılaşma onun alın yazısı idi. Yenə taleyin oyunu..." Çingiz Aytmatov yaradıcılığında bu tip məqamlar həddindən artıq çoxdur və bu ayrıca bir tədqiqat işinin mövzusudur.

Çingiz Aytmatovla bağlı ölkəsi Qırğızıstanda və dünyada bir neçə mərkəz var ki, internet üzərindən olsa belə onların fəaliyyətini izləyir, ailəsi və eləcə əsas tədqiqatçıları ilə münasibət saxlamağa çalışıram. Qırğızıstana baş tutan elmi ezamiyyətlər bu əlaqələrin yaranmasında mühüm rol oynayıb. Bir müddət öncə Londonda yerləşən Beynəlxalq Çingiz Aytmatov Akademiyasının rəhbəri, uzun illər Çingiz Aytmatovun yanında çalışmış professor Rəhimə Abduvəliyeva yazıçı ilə keçirilən görüşlərdən birindən bəhs etdi. Həmin görüş 1995-ci ildə Almaniyanın Kassel şəhərində Antroposofiya mərkəzində keçirilmişdir. Məqsəd yazıçının yeni nəşr olunmuş "Kassandra damğası" romanının müzakirəsi və "Manas" dastanının min illik yubileyinə hazırlıqla bağlı idi.

Görüşdə Çingiz Aytmatov "Əkinçinin nəğməsi" adlı duaya bənzər folklorik mahiyyətli şeirini səsləndirir. Rəhimə xanımın qeydlərinə görə şeir böyük maraqla qarşılanır, tədbirdən sonra həmin mətni əldə etmək üçün çoxlu zənglər edilir. Yazıçının əsərlərinin alman dilinə tərcüməçisi Friderik Hitzer nəğməni alman dilinə tərcümə edir və Unionsverlag şəbəkəsində yayımlanır. Eyni zamanda ingilis dilinə tərcümə olunur. Şeiri oxuduqda marağıma səbəb oldu və Professor Rəhimə Abduvəliyeva nəğməni tərcümə etmək istədiyimi bildirdim.

Çingiz Aytmatov yaradıcılığının əsas istinad nöqtəsindən biri, bəlkə də birincisi, heç şübhəsiz ki, qırğız eposu "Manas" və qədim folklor və mif mətnləridir. Uşaqkən nənəsindən dinlədiyi həmin mənbələri yazıçı çox sonralar peşəkarcasına tədqiq etmiş və yaradıcılığında həmin mətnlərdən ustalıqla yararlanmışdır. Xüsusilə, "Manas" eposunu yazıçı özünün müəllimi adlandırmışdır. O, özünün "Qədim qırğız ruhunun zirvəsi" adlı məqaləsində dastanın mahiyyətini aydın şəkildə ifadə etmişdir. "Onun damarlarında gəzən ideal, bəşəriyyətin doğuşundan bu yana, insanı gah məhv edən, gah sevindirən, gah araşdırma və ideal şövqü verib yorğun insana qol-qanad olan, qüvvət və nəfəs verən əbədi, ölümsüz ideyadır."

"Əkinçinin nəğməsi" Çingiz Aytmatovun nəsr yaradıcılığındakı mətləblərin kiçik həcmdə poetik əksidir. Yazıçının qəhrəmanı əkin sahəsi boyu addımlayır və toxumu torpağa səpir. İlk baxışdan adi görünən bu prosesdə qəhrəman insan xarakterinə, insanlığa aid olan ali dəyərləri təcəssüm etdirir. O toxumdan cücərəcək məhsulun bol olmasını torpaqların hamisi sayılan Babadıyxandan istəyir. Addımlayaraq əlindəki ovucları xeyirxahlıqla, adilcəsinə bölüşdürür. Ovuc-ovuc sağa, sola səpdiyi toxumdan bol məhsul üçün Babadıyxana müraciət edir və kimsəsiz yetim uşaqlara, tənha qocalara, qonşu diyarlarda ac qalanlara, səyyahlara, torpaq gəzən, sürünən, uçan bəşərət və heyvanlara, nəhayət hamıya - sənə, mənə, ailəyə, uşaqlara pay bölür. Yazıçının qəhrəmanı həm də zəhmətkeşdir. O, Yedigeyin, Mömin Babanın, Tınalıyevin varisidir. Burada təkcə sinif olaraq zəhmətkeşlik deyil, xaraktercə, düşüncə baxımından zəhmətkeşlikdən söhbət gedir. Bu o insanlardır ki, onlar dünyanın yükünü çiyinlərində daşıyırlar, Yazıçı "Gün var əsrə bərabər" romanının ön sözündə Yedigey obrazını xarakterizə edərkən yazır: "Boranlı Yedigey təkcə öz təbiəti və məşğuliyyət tərzinə görə zəhmət adamı olaraq qalmır. O, ruhən zəhmətkeşdir. Ruhən zəhmətkeş adam isə həmişə düşünür, özünə suallar verir".

Çingiz Aytmatov insan şəxsiyyətinin ölçüsünü zəhmətə olan münasibəti ilə qiymətləndirir. Bu baxımdan onun söylədiyi nəğmənin qəhrəmanı da yazıçının həmin ideallarının davamçısıdır. Çingiz Aytmatov nəsrindəki əsas mətləbin kiçik nəğmədə ifadəsi olan "Əkinçinin nəğməsi" artıq doğma dilimizə tərcüməsi hazırdır. Buyurun, "Əkinçinin nəğməsi"ni Azərbaycan oxucusuna təqdim edirik:

*Çingiz Aytmatov*

